# MİLLİ TARİXİMİZİN QÜRUR MƏNBƏYİ - Cümhuriyyət qurucuları

**Təranə Cavadova**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı
**E-mail:** Teranecavadova62 @gmail.com



XX əsrin əvvəllərində dünya dövlətləri və xalqlarının hüquq və azadlıqlar ideyasını hələ yenicə mənimsəməyə başladığı bir vaxtda Azərbaycan xalqının öz istiqlaliyyəti, suverenliyi uğrunda şərəfli mübarizəyə başlaması milli dövlətçilik tariximizin ən parlaq səhifələrindəndir. Bu mübarizənin başlıca hədəfi Azərbaycan xalqının tarixi dövlətçilik ənənələrini bərpa edən yeni müstəqil dövlətin, dinindən, milliyyətindən asılı olmayaraq bütün insanların azad və xoşbəxt yaşaması üçün demokratik bir cəmiyyətin yaradılması idi. Təsadüfi deyildir ki, vətəndaşların mülki və siyasi hüquqlarının qorunması, bütün xalqların və hər bir vətəndaşın milli, dini, irqi mənsubiyyətindən asılı olmayaraq, bərabərhüquqlu inkişafı üçün şəraitin yaradılması Azərbaycan Xalq Cümhuriyyətinin istiqlal Bəyannaməsində də birbaşa əksini tapmışdı.

Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.

Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi əbədi daxil olmuşdur. 1917-ci ilin fevralında Rusiyada monarxiya rejiminin devrilməsi ilə hakimiyyətə gələn Müvəqqəti hökumət Müəssislər Məclisinə seçkilər keçirildi. Lakin Müvəqqəti hökumət qısa müddət hakimiyyətdə qala bildi və 1917-ci ilin oktyabr ayında hakimiyyət çevrilişi baş verdi. O zaman Cənubi Qafqazdan Müəssislər Məclisinə seçilən deputatlar Rusiyaya gedə bilmədikləri üçün 1918-ci il fevralın 14-də Tiflisdə Cənubi Qafqazın ali hakimiyyət orqanı, Zaqafqaziya Seymini - Zaqafqaziya parlamentini yaratdılar. Zaqafqaziya Seyminin azərbaycanlı, erməni və gürcü deputatları apreldə Zaqafqaziya Demokratik Federativ Respublikasını elan etdilər. Elan olunan respublikanın paytaxtı Tiflis idi. Gürcü A.Çxengelinin başçılıq etdiyi hökumətə Azərbaycandan F.Xoyski, K.Məlik-Aslanov, N.Usubbəyov, M.H.Hacinski və M.Heydərov daxil idilər. Amma bir ay sonra Federasiya dağıldı. 26 May 1918-ci il tarixli son iclasda seymin buraxıldığı elan edildi. Seymin süqutundan sonra oraya daxil olan ölkələr istiqlaliyyətlərini elan etdilər. 27 May 1918-ci ildə qurumun azərbaycanlı deputatları Tiflisdə fövqəladə iclas keçirərək Azərbaycanın Milli Şurasının yaranması barədə bəyanat verdilər. Seymdə Müsəlman şurasını Müəssislər Məclisinə seçkilər zamanı Azərbaycanın, habelə bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Dövlət dumalarında olduğu kimi, Zaqafqaziya Seyminin ən ardıcıl üzvləri Azərbaycan nümayəndələriydi. Buna görə də nümayəndələrin tələbi ilə 1918-ci il aprelin 9-da Zaqafqaziya Seymi Zaqafqaziyanın müstəqilliyini elan etmişdir. Zaqafqaziya müsəlman şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. Bununla Azərbaycanın tarixində ilk parlament yaradıldı və ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. 27 may 1918-ci ildə qurumun azərbaycanlı deputatları Tiflisdə fövqəladə iclas keçirərək Azərbaycanın Milli Şurasının yarandığını bildirdilər. Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə (Müsavat), müavini Həsən bəy Ağayev (Müsavat), katibi Mustafa Mahmudov (Müsavat), icraiyyə komitəsinin (hökümətin) sədri Fətəli Xan Xoyski (bitərəf) seçildilər. Digər üzvlər isə Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman Nərimanbəyov, Heybətqulu Məmmədbəyli, Mehdi bəy Hacınski, Ələsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Soltan Məcid Qənizadə, Əkbər Şeyxülislamov, Məmməd Yusif Cəfərov, Hidayət bəy Məlikaslanov, Rəhim bəy Vəkilov, Həmid Bəy Şahtaxtinski, Firudin bəy Köçərli, Cəmo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov bəy Sultanov, Cəfər Axundov, Məmməd Məhərrəmov, Cavad Məlikyeqanov, Hacı Molla

Axundzadə. (6, 18) 28 mayda Milli Şura Azərbaycanın müstəqilliyini elan etdi. Həsən bəy Ağayevin başçılığı ilə Azərbaycan istiqlaliyyəti haqqında bəyannamə qəbul olundu.

Bəli, 28 May 1918-ci ildə Şərqin ilk demokratik respublikası rəsmən tanındı. Amma dövlət Tiflisdən elan edilmişdi, Bakı faktiki olaraq işğal altında idi. Cümhuriyyətin sərvət və varidat mənbəyi olan Bakı əldən getmişdi, bolşevik-erməni qüvvələri Gəncəyə doğru irəliləyirdilər. Daxildəki ermənilərin də bu düşmənlə birləşmələri halında vəziyyət təhlükə yaradacaqdı. M.Ə.Rəsulzadənin başçılıq etdiyi Milli Şuranın Azərbaycanın müstəqil dövlət halına gəlməsində xidmətləri həqiqətən əvəzsizdir. Cümhuriyyətin elanından sonra Milli Şuranın ikinci böyük işi Osmanlı dövlətini inandıra bilmələri oldu. Osmanlının da Azərbaycan nümayəndə heyətinə inanması və ölkənin istiqlaliyyəti üçün hərbi yardım etməsi heç də təsadüfi deyildi. Əvvala oxuyub öyrəndiyimizə görə, o dövrə qədər də, gerçəkdən kim Osmanlıdan yardım istəyibsə, Osmanlı mütləq yardıma getmişdir. Hansı şərtlər içində olursa-olsun, Osmanlı ordusu İslama qarşı harada hücum varsa orada mütləq vəziyyət alırdı. Ümumiyyətlə yüksəlmə dövründə Osmanlı Allah üçün yaşayıb, Allah üçün dövlət idarə edib. Həmçinin də hələ illər öncə, 1912-ci ildə Balkanlarda müharibə başlayanda Müsavat partiyası bir bəyannamə ilə çıxış edərək bütün türk və müsəlman dünyasını Osmanlıya köməyə çağırmışdı. Həmin bəyannamədə deyilirdi: "Dindaşlar! Biliniz və agah olunuz ki, yeganə ümidimiz və çareyi-nicatımız Türkiyənin istiqlal və tərəqqisindədir. Əgər indi özümüzün əvvəlki hissizliyimizdən vaz keçməsək, dünyanın gözü önündə haqq, islamiyyət və milliyyətimizi itirib... əsir olacağımız şəkk və şübhədən aridir". (10, 215)

Müstəqil Azərbaycan Cümhuriyyəti adından Milli Şurasının sədri M.Ə. Rəsulzadə və xarici işlər naziri M.H. Hacınski iyun ayının 4-də Türkiyə nümayəndəliyi ilə dostluq haqqında müqavilə imzaladılar. 1918-ci il iyun ayının 4-də "Osmanlı İmperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasındakı dostluq müqaviləsi"ni Türkiyə dövləti adından Ədliyyə naziri Xəlil Menteşə, Qafqaz cəbhəsinin Baş komandanı Vəhib Paşa imzaladılar. Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti 17 aylıq aramsız fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentçilik tariximiz iki dövrə ayrılır: birinci dövr - 1918-ci il mayın 27-dən noyabrın 19-dək davam etmişdir. Altı aya qədər davam edən bu müddət ərzində Azərbaycan Milli Şurası adı ilə fəaliyyət göstərən və 44 nəfər müsəlman-türk nümayəndələrindən ibarət olan ilk Azərbaycan Parlamenti çox mühüm tarixi qərarlar qəbul etmişdir. Beləliklə, ilk parlamentimiz 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş, ölkənin idarə olunmasını öz üzərinə götürmüş və tarixi İstiqlal Bəyannaməsi qəbul olunmuşdu. Azərbaycan Milli Şurasının o zaman çox mürəkkəb və həlledici bir tarixi məqamda Tiflisdə Qafqaz canişininin iqamətgahında elan etdiyi İstiqlal Bəyannaməsi Azərbaycan demokratiyası və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin cəmi 145 iclası olmuşdur. Bütün bu iclaslarda parlament İstiqlal Bəyannaməsinin müəyyən etdiyi prinsiplərə sadiq qalaraq, ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti çox mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın milli oyanışını əbədi etməyə, elmin, təhsilin və xalq maarifinin, səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin [illegible]ər yerində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısa müddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerlərində xəstəxana və feldşer məntəqələri şəbəkəsi yaradılır, yoluxucu xəstəliklərə qarşı mübarizə aparılırdı. Bu baxımdan parlamentin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanunu xüsusi vurğulamaq lazımdır.

M.Ə.Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində "Müsavat" fraksiyasına (1919 ilin oktyabrından "Müsavat" və bitərəflər fraksiyası) başçılıq etmiş, digər istiqlalçı qüvvələrlə birlikdə Azərbaycanın milli və dövlət maraqlarına cavab verən qanunların qəbulunda həlledici rol oynamışdır. M.Ə.Rəsulzadə parlamentdə Bakı Dövlət Universitetinin açılması ətrafında gedən müzakirələrdə də qətiyyətli çıxışlar etmişdi. Milli universitetin açılması Cümhuriyyət xadimlərinin doğma xalq qarşısında çox mühüm tarixi xidmətlərindən biridir. İlk yaradılan Bakı Dövlət Universitetinin rektoru vəzifəsini Vasili İvanoviç Razumovski icra etmişdi. V.İ.Razumovski peşəcə cərrah idi. 1887-ci ildən Kazan Universitetinin professoru olaraq çalışıb. V.Razumovski 1909-cu ildə Saratov, 1918-ci ildə Tbilisi Universitetlərinin əsasını qoyanlardan olub. O,1909-1912-ci illərdə Saratov Universitetinin, 1919-1920-ci illərdə isə Bakı Universitetinin ilk rektoru vəzifəsini icra edib. O yazırdı: "Azərbaycan öz maarif ocağını yaratdı.Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Cümhuriyyət qurucularının əksəriyyəti - Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Xosrov bəy Sultanov, Məmmədhəsən Hacınski, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxülislamov, Xudadat bəy Məlik-Aslanov, Camo bəy Hacınski, Xudadat bəy Rəfibəyli, Behbud xan Cavanşir, İsmayıl xan Ziyadxanov, Aslan bəy Səfikürdski, Səməd bəy Mehmandarov, Rüstəm xan Xoyski və başqaları yüksək təhsil almış ziyalılar, siyasətçilər idilər. Onlar yaxşı başa düşürdülər ki, yaranmış yeni tarixi-siyasi şəraitdə Azərbaycan öz böyük dövlətçilik ənənələri üzərində müstəqil demokratik respublikanı ərsəyə gətirməsə, bu imkan birdəfəlik əldən çıxacaq. Cümhuriyyətin süqutundan sonra həyatını itirmiş, əksəriyyəti isə 1920-ci ildə bolşeviklər tərəfindən öldürülmüş bu insanlar böyük millət qəhrəmanlarıdır. Məhz cümhuriyyətçilərin fədakarlığı sayəsində Azərbaycan bu gün də Qafqazın ən böyük dövləti olaraq yaşamaqdadır. Əgər cümhuriyyətçilər 1918-1920-ci illərdə müstəqilliyin təməlini qoymasaydılar, Azərbaycan və digər Qafqaz ölkələri XX əsrin sonlarında Sovet İttifaqından suveren respublika kimi ayrıla bilməyəcəkdilər.1920-

ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu xalqımızın dünyəvi universal dəyərlərə bağlılığını, istiqlal əzmini sarsıtmadı, əksinə, fədakar cümhuriyyətçilər öz mübarizələrini yeni siyasi şəraitdə daha uyğun platformalarda aparmağa davam etdilər. Xüsusilə Azərbaycanının siyasi mühacirət nümayəndələri Cümhuriyyət ideyalarının yaşadılması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində yorulmadan çalışdılar. Azərbaycan Xalq Cümhuriyyəti qarşısına qoyduğu məqsədlərə tam nail olmadan süquta uğrasa da, onun xalqımızın şüurunda bərqərar etdiyi istiqlaliyyət məfkurəsi demokratik, hüquqi dövlət prinsiplərinə əsaslanan müstəqil Azərbaycanın yenidən qurulmasında əvəzsiz rol oynadı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və digər görkəmli şəxsiyyətlər tərəfindən təməli qoyulmuş proseslər Azərbaycanda yeni tipli teatrın, məktəbin və mətbuatın yaranması ilə nəticələndi, milli özünüdərkin gerçəkləşməsinə böyük təsir göstərdi. Bakının neft paytaxtına çevrilməsi milli sahibkarlar təbəqəsinin formalaşması ilə yanaşı, dünyanın aparıcı universitetlərində təhsil almış ziyalılar nəslinin yetişməsinə şərait yaratmışdır. Əlimərdan bəy Topçubaşov və başqa ziyalıların siyasi proseslərə qatılması, Dumaya seçilməsi və Rusiya müsəlmanlarının təşkilatlanmasında oynadıqları rol tariximizin unudulmaz səhifələrindəndir. Bu gün siyasi sabitliyin, dayanıqlı inkişafın mərkəzi olan Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyəti dövründə gerçəkləşdirilməsi mümkün olmayan ideya və məqsədləri əzmkarııqla həyata keçirməkdədir. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və mövcudluğu uğrunda mübarizə aparmış şəxsiyyətlərin ruhuna ən böyük ehtiram da məhz demokratik, hüquqi dövlət quruluşunun əsaslarını möhkəmləndirməkdən, insan inkişafına əsaslanan rifah dövləti yaratmaq uğrunda ardıcıl fəaliyyəti davam etdirməkdən ibarətdir. ❖


**Ədəbiyyat:**

1. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar. 9 cilddə (Heydər Əliyev), c.I. (1969-1982) Bakı: Turxan NPB, 1019, 668 s, s.18; II c. (1993-2003), 640 s., s.19
2. Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi. "Azərbaycan" qəzeti, 5 yanvar 2003-cü il
3. Bakı Beynəlxalq Humanitar Forumda Azərbaycan Prezidenti. İ.Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 26 oktyabr 2018-ci il
4. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Kit.3. Fevral 2004 – aprel 2004. Bakı: "Azərnəşr", 2009, 416 s., s.146-151
5. Rüstəmova A.S Azərbaycan SSR-də elmi-sahə kitabxanalarının yaranması və fəaliyyəti. Bakı: "Elm və təhsil", 2014, 216 s., s.123
6. Мусаева Т.А. Культура на рубеже эпохи (20-30-годы XX столетий). Баку: "Елм ve тахсил", 2015, 376 с.



**Резюме**

Тарана Джавадова

РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ 1918-1920 ГОДАХ В СОХРАНЕНИИ НАШЕГО КУЛЬТУРНОГО И ДУХОВНОГО НАСЛЕДИЯ, КАК НАЦИОНАЛЬНОГО ДОСТОЯНИЯ

Первой парламентской республике на мусульманском Востоке - Азербайджанской Народной Республике - удалось создать современные государственные институты, сохранив древние традиции государственности нашего народа. Создание национального парламентаризма начинается с первого заседания парламента Азербайджана, состоявшейся 7 декабря 1918 года.

Создание Азербайджанской Демократической Республики стало логическим результатом национальных политических событий и национального пробуждения азербайджанского народа. Аббасгулу Ага Бакиханов, Мирза Фатали Ахундов, Гасан Бэй Зардаби, Джалиль Мамедгулузаде и другие выдающиеся личности привели к созданию в Азербайджане нового типа театра, школы и средств массовой информации и оказали большое влияние на национальную самоактуализацию. Преобразование Баку в нефтяной капитал способствовало формированию интеллектуалов наряду с формированием национального класса предпринимателей, а также образованных интеллектуалов всего мира. Роль Алимардана бека Топчубашова и других интеллектуалов в политических процессах, выбор Думы и организация российских мусульман - одна из незабываемых страниц нашей истории.

**Ключевые слова:** цивилизация, писатель, наука, монография, переводчик, историческая справка, осуществимость



**Summary**

Tarana Javadova

THE ROLE OF ADR İN THE PRESERVATİON OF OUR CİVİL AND CULTURAL HERİTAGE AS NATİONAL WEALTH İN THE 1918-20 YEARS

The first parliamentary republic in the Muslim East, the People's Republic of Azerbaijan, managed to create modern state institutions, preserving the ancient traditions of the statehood of our people. The creation of national parliamentarism begins with the first meeting of the Azerbaijani parliament, held on December 7, 1918.

The creation of the Azerbaijan Democratic Republic was the logical result of national political events and the national awakening of the Azerbaijani people. Abbasgulu Aga Bakikhanov, Mirza Fatali Akhundov, Hassan Bey Zardabi, Jalil Mamedguluzade, and other prominent personalities led to the creation of a new type of theater, school, and media in Azerbaijan and had a great influence on national self-actualization. The transformation of Baku into oil capital contributed to the formation of intellectuals along with the formation of a national class of entrepreneurship, as well as educated intellectuals from around the world. The role of Alimardan Bek Topchubashov and other intellectuals in political processes, the choice of the Duma, and the organization of Russian Muslims is one of the unforgettable pages of our history.

**Key words:** civilization, writer, science, monograph, translator, historical reference, feasibility